**Təsərrüfatlarda kimyəvi mübarizə zamanı təhlükəsizlik qaydaları ilə bağlı tədbirin keçirilməsinə dair məlumat**

**(22 avqust 2023)**

Ətraf mühitin və insan sağlamlığının qorunması məqsədilə Agentliyin fitosanitar əməkdaşları tərəfindən Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya Mərkəzinin əməkdaşları ilə birgə Bərdə rayonunun Şirvanlı, Qaradəmirçi, Kətəlparaq, Əyricə, Ağdam rayonunun isə Quzanlı, Xındırıstan kəndlərində pambıqçılıqla məşğul olan sahibkarlarla bitki mühafizə vasitələrindən və aqrokimyəvi maddələrdən düzgün istifadə qaydaları ilə bağlı maarifləndirici görüş keçirilib.
Tədbirdə kimyəvi mübarizə zamanı təhlükəsizlik qaydalarına əməl olunması əyani olaraq nümayiş etdirilib. Dərmanlamadan sonra sahənin kənarlarına qadağanedici lövhələr yerləşdirilib. Tədbir iştirakçılarına pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi zamanı təhlükəsizlik qaydalarına əməl olunmasını özündə əks etdirən bukletlər paylanıb.